# Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 132 (1980) 16-17 avqust 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

**(əvvəli ötən sayımızda)**

**İmamzadələrlə bağlı fikirlərimizi diqqətə çatdırarkən istinad etdiyimiz mənbələrdən biri də tarix üzrə fəlsəfə doktoru İlhami Əliyevdir. Onun məqalələrinin birində qeyd olunur ki, hələ "ötən əsrin 20-ci illərində Azərbaycan Tədqiq və Tətəbbö" Cəmiyyətinin göndərişilə Naxçıvanda ezamiyyətdə olmuş epiqraf İ.Əzimbəyovun burada apardığı elmi işlərdən məlum olur ki, vaxtilə həmin daş kitabənin üzərində, yəni onun şimal-qərb tərəfindən nəsx xəttilə yazı olmuşdu. Və bu kitabəyə əsasən də məlum olmuşdu ki, İmamzadə abidəsi səfəvi şahı II**

da yeganə giriş qapısıdır. Həmin birinci salonun şimalında ona bitişik həm uzunluğuna, həm də eninə görə daha böyük olan ikinci bir salon da var, ilk salondan fərqli olaraq növbəti ikinci salonun ortasında, yəni mərkəz hissəsində gümbəz ucaldılıb. Tarixçi alim İlhami Əliyevin fikirlərinə görə, kompleksə giriş qapısının məhz bu salon tərəfindən olması özü də müəyyən məqamlara xidmət edir. Görünür, bunun da müəyyən bir əhəmiyyəti olubdu. Əks halda, elə yeganə giriş qapısından istifadə etmək olardı.

Təbii ki, bütün bunlar həmin Naxçıvan şəhər İmamzadə kompleksinin özünün tikilməsi dövrüylə və həmin tarixi şəraitlə də bağlıdır. Ona görə də



# ƏSRLƏR AŞAN İNANCLAR

## İmamzadələr

**Təhmasibin zamanında, yəni 1722-1732-ci illərdə Hacı Fuad bəyin oğlu (Həzərət Rufai) tərəfindən inşa olunmuşdu.**

Bux, bu bilginin özü də ondan xəbər verir ki, Naxçıvanda və ümumiyyətlə bu bölgənin ayrı-ayrı yerlərində tikilən İmamzadələrin hər birinin inşa olunmasında fərdi şəxslərin təşəbbüsü və xidmətləri olubdur. Yəni tanınmış və imkanlı şəxslər belə bir təşəbbüslər göstərmiş və nəticədə də Naxçıvan ərazisində xeyli sayda imamzadələr tikilmişdi.

bu kompleksin daxilində başqa bir qəbir yoxdur. Lakin bir məqam da elm adamlarının, araşdırmaçıların diqqətini çəkib. O da bundan ibarətdir ki, rus araşdırmaçı aliminin, yəni V.M.Sisoyevin yazdığına görə, məhz Naxçıvan şəhər İmamzadə kompleksinin giriş hissəsində Naxçıvan xanlarının məqbərəsi olubdu. Hətta rus alimi həmin dövrün Naxçıvan xanlarından olan Mustafa Qulu xan Naxçıvanskinin oğlu Abbasqulu xanın bu kompleksin da-



O ki, qaldı Naxçıvan şəhər İmamzadə kompleksinə, burada ad diqqətçəkən məqamlar kifayət qədərdi. Həmin məqamlardan biri də budur ki, bu türbəyə bitişik olan kompleksin dördbucaqlı formasında olan ilk salonu şimalda yerləşir.

Həmin salonu türbədən təxminən 1,5 metr hündürlüyündə giriş qapısı var. Bir az da fikrimizi genişləndirsək deyə bilrik ki, türbənin giriş qapısı onun şimal tərəfindən yerləşir və bu

xilində dəfn edildiyini yazıbdır. Bu faktı qeyd edən Sisoyev əlavə olaraq onu da xatırladıb ki, kompleksin yan divarlarında taxcalar, eləcə də bir buxarı tikilibmiş.

Doğrudur, kompleksin şimal divarında buxarı olduğunu vurğalayan Sisoyevin dediklərini bu günümüzün reallığı bizə göstərmir. Yəni arxada qalan yüz illər həmin deyilənləri silib öz arxivinə atıbdı. Amma bugünkü və-

ziyyətdə kompleksin divarlarında taxçaların yeri qalır. Bu da rus aliminin fikirlərini dolayısı ilə də olsa sübut edən bir gerçəklikdir.

Bəli, biz Naxçıvan şəhər İmamzadə kompleksi ilə bağlı üz tutduğumuz mənbələrdən əldə etdiyimiz bilgilərə görə, maraqlı bir məqamla da qarşılaşdıq.

Bu da onunla bağlıdır ki, bu kompleksdəki qəbri ziyarət etmək məqsədilə tikilibmiş salonlar. Yəni qəbri ziyarət zamanı kişilər birinci salonda, qadınlar isə ikinci salonda ibadət edirlərmiş.

Demək olar ki, bu adət-ənənə müəyyən mənada son dövrlərə qədər gəlib çıxıbdır.

Bu gün də həm yerli sakinlərin, həm də Naxçıvan şəhərinə gələn qonaqların, xüsusilə turistlərin diqqət mərkəzində olan Naxçıvan şəhər İmamzadə kompleksinin maraqlı məqamlarından biri də bu kompleksdən şimaldan, yəni kompleksdən bir neçə metr yüksəkdə yerdən dördbucaqlı formada, həmin dördbucaqlının özünün üzərində isə altıbucaqlı formada olmaqla bir türbə də tikilibdi. Təəssüf ki, bu türbənin heç bir kitabəsi yoxdur və bəlkə də zamanında olubsa da, bu günə gəlib çıxmayıbdı.

Amma türbənin özü ikiqapılıdı. Bir az da dəqiq ifadə etsək, biz Naxçıvanda olarkən ziyarət etdiyimiz bu türbənin barəsində əldə etdiyimiz bilgilərdən məlum oldu ki, onun zirzəmi hissəsi nə daxil olmaq üçün qərb tərəfdəki girişdən istifadə etmək lazımdır. Amma türbənin üst hissəsinə isə giriş şimal tərəfdəndir.

Və biz bu türbəni ziyarət edərkən onu da bildirdilər ki, burada heç bir qəbir yoxdur. Üstəlik, bizə məlumat verən əməkdaş vurğuladı ki, kompleksin ən salamat qalan hissəsi, yeni

dövrümüzə daha baxımlı bir şəraitdə gəlib çıxan bu türbədi.

Təbii ki, bu gün Naxçıvanda aparılan adablıq-quruculuq işlərinin tərkib hissəsi olan abidələrə münasibət ürəkaçandır. Məhz Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, xüsusilə Ali Məclisin sədri cənab Vasif Talıbovun birbaşa qayğısıyla əhatə olunmuş Naxçıvan abidələri tez-tez və yüksək səviyyədə təmir olunur, restabrasiya işləri aparılır və bu da öz növbəsində abidələrin ömrünü uzadır. Biz də Naxçıvan səfərimiz zamanı bunun canlı şahidi olduq. Gördük ki, Naxçıvan şəhər İmamzadə kompleksi özünün yeni dövrünü yaşayır.

Ümumiyyətlə, barəsində söhbət açıdığımız kompleksə bağlı Azərbaycan alimlərinin və digər xarici ölkə alimlərinin fikirləri ilə baş-başa qalarkən bizə açılan min illiklərin sirləri həm heyrət doğurdu, həm də bizdə qürur hissi yaratdı.

Elə rus alimi Sisoyevin yazdıqlarına istinad etsək, bu heyrət və qürurun hardan qaynaqlandığını bir daha duymuş olarıq. Sisoyev yazır ki, "İmamzadəyə yaxın ərazidə çox da böyük olmayan yarıaçıq vəziyyətdə bir məzarüstü tikili, onun içində isə üstün mumya çəkilimş bütöv bir cəsəd vardı".

Alimin yerli əhalidən öyrəndiklərinə görə, guya əvvəllər bu cəsədi çıxarıb Kərbala və yaxud Nəcəfə aparmaq istəyiblər. Lakin Rusiyanın tərkibində olan Azərbaycan da 1918-ci il inqilabını yaşadığından bu istəyi gerçəkləşdirmək mümkün olmayıb.

**Bəli, barəsində müəyyən bilgilər verdiyimiz Naxçıvan şəhər İmamzadə kompleksi tariximizin inancalarımızı qoruyan ünvanlarından biridir. Onu ziyarət etməyə tələsin!**

**(ardı gələn sayımızda)**

**Əbülfət MƏDƏTOĞLU**